# AZƏRBAYCAN İQTİSADİYYATININ QLOBAL BÖHRANLARA DAYANIQLIĞINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

*Vəliyeva Aytəkin*
*Elmi rəhbər: Kələşov Arif*
*Mingəçevir Dövlət Universiteti*

Müasir dünyada ölkələrin iqtisadi inkişaf sürətləri tamamilə fərqlidir. İqtisadi terminin önəmli amilləri sırasına qeyd etdiyimiz bərabərsizliyin əsas səbəblərinin aşkar edilməsi üçün iqtisadi artım anlayışını bir konsepsiya olaraq dərk edilməsi və onun dərindən tədqiq edilməsi daxildir. İqtisadi artım müəyyən bir müddətdə iqtisadiyyatda vahid miqdar, vahid həcm artımı deməkdir. İqtisadi artım müəyyən dövrdə iqtisadiyyatda vahid miqdar, vahid həcm artımıdır. İqtisadi artım dedikdə, insanları və bütünlüklə ölkəni hal-hazırkından daha sağlam və daha qüvvətli bir gücə, yüksək gəlir səviyyəsinə doğru apara biləcək kəmiyyət artımı nəzərdə tutulur. Ümumiyyətlə, iqtisadi artım iqtisadiyyat üzrə istehsal edilən əmtəə həcminin artımı deməkdir. Bir çox iqtisadçıların qəbul etdiyi metoda görə iqtisadi artım, Ümumi Daxili Məhsulun (ÜDM) ötən dövrə nisbətən faizlə artımıdır. Artım, yeni qiymətlərdəki artım (inflyasiya) nəzərə alınmadan real şərtlərlə hesablanır. Buna görə də real dəyərlərdən istifadə etməklə iqtisadi artımı ölçmək lazımdır.

Müasir şəraitdə maliyyənin iqtisadi sistemdəki rolu makroiqtisadi səviyyədə qiymətləndirilməlidir. Mühüm iqtisadi kateqoriya kimi onun mahiyyəti, funksiyaları, həmçinin təkrar istehsal prosesində tutduğu yer və mövqeyi məhz bu baxımdan araşdırılmalıdır. Artıq qeyd olunduğu kimi, hər bir dövlətin iqtisadi qüdrəti onun maliyyə vəsaitinin həcmi ilə ölçülür. Maliyyə vəsaitinin həcmi isə, əsasən maddi istehsal sahəsindən, yəni istehsalın inkişafından və əmək məhsuldarlığından asılıdır. Dövlət maliyyə vəsaiti hesabına geniş təkrar istehsalın fasiləsizliyini təmin edir. O, pul vəsaitinin müəyyən hissəsini qeyri-istehsal sahəsinin saxlanmasına, ölkənin ərazi bütövlüyünün təmin edilməsində çox mühüm rol oynayan ordunun maddi-texniki təminatına yönəldir.

Göründüyü kimi, maliyyə sistemi hər bir ölkənin sosial-iqtisadi həyatında çox mühüm rol oynayır. Maliyyənin öz funksiyaları vardır və onlar, bu gün də ən çox müzakirə olunan məsələlərdəndir. Ümumiyyətlə, mahiyyət hər hansı bir predmetin çoxsaylı xüsusiyyətlərini özündə birləşdirən daxili məzmundursa, funksiya isə, obyektin xarici, yaxud zahiri cəhətlərini özündə əks etdirir.

Mürəkkəb qlobal iqtisadi mühitin ölkə iqtisadiyyatına təsirləri çoxtərəfli olmuşdur. Ötən illə müqayisədə bir qədər azalsa da, Azərbaycanın əsas ixrac məhsullarının qiymətləri əlverişli olaraq qalmışdır. Bu da ölkənin tədiyə balansına, valyuta bazarında tarazlığa və iqtisadi aktivliyə pozitiv təsir göstərmişdir. 2023-cü ildə tədiyə balansının başlıca komponenti olan xarici ticarət balansı profisitli olmuşdur. Belə ki, ilin 11 ayında xarici ticarət balansında 15.7 mlrd. ABŞ dolları məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin 9 ayı üzrə cari əməliyyatlar hesabının profisiti 6.7 mlrd. ABŞ dolları və ya ümumi daxili məhsulun (ÜDM) 12.5%-i səviyyəsində olmuşdur. Profisitli tədiyə balansı şəraitində ölkənin strateji valyuta ehtiyatları 2023-cü ilin 11 ayında 16.6% artaraq 68.2 mlrd. ABŞ dollarına

çatmışdır. 2023-cü ildə ölkədə iqtisadi artım davam etmişdir. 2023-cü ilin yanvar-noyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ÜDM real ifadədə 0.8%, o cümlədən qeyri neft-qaz sektoru üzrə 3.2% artmışdır. Qeyri neft-qaz sektorunda iqtisadi artımı həm daxili, həm də xarici tələb dəstəkləmişdir. Dövr ərzində məşğulluğun səviyyəsində də artım müşahidə edilmişdir. 2024-cü ildə də pul siyasəti qərarlarının qəbulu zamanı valyuta bazarında gedən proseslər nəzərə alınacaqdır. [2].

Hazırkı qlobal böhranın zəif nöqtəsi sayılan banklar müxtəlif ölkələrdən depozit şəklində gələn və ilbəil artmaqda davam edən pullarla davrana bilmədilər. Çox da uzaq olmayan keçmişdə həmin pullar qısa müddətə və yüksək faizlərlə ticarət və xidmət sektoruna yönəldilirdi. Nisbətən sərfəli şərtlərlə borc götürüb köhnə borcları qaytarmaq təcrübəsi də kifayət qədər geniş yayılıb [3].

Iqtisadçıların fikrincə, qlobal iqtisadi prosesin hazırkı tendensiyaları göstərir ki, 1990-cı illərdən başlayaraq bizdə beş il ərzində ən aşağı göstəricilər olacaq. Dərin maliyyə böhranı olmadan inflyasiyanın azalmasına nail olmaq mümkün olsa da, qlobal iqtisadi göstəricilər kifayət qədər təvazökar olacaq. İnflyasiyanın azalması əsas dövlətlərin mərkəzi banklarının həyata keçirdiyi monetar siyasət, xüsusilə ilkin faiz dərəcələrinin artırılması sayəsində mümkün olub. 2023-cü ildə bu, 5,3 faiz idi. Bu il inflyasiya 3,7 faiz təşkil edəcək. Bununla belə, inflyasiya davam edir. Analitiklərin fikrincə, hazırkı vəziyyət dünyanın aparıcı dövlətlərinin 2030-cu ilə qədər qarşıya qoyduğu iqtisadi hədəflərə nail ola bilməyəcəklərini göstərir. Söhbət həmçinin Birləşmiş Millətlər Təşkilatının qeyd etdiyi prioritetlərdən, məsələn, dünyada ifrat yoxsulluğun aradan qaldırılması, istixana qazlarının emissiyasının azaldılması və digər iddialı məsələlərdən gedir. [4].

Ümumiyyətlə, qlobal maliyyə böhranın dərinləşməsi milli səviyyədə iqtisadi tənzimləmələrin səmərəsini azaltmış və dövlətlərüstü tənzimləmə orqanlarının yaradılması zərurətini doğurmuşdur. Qlobal maliyyə böhranın təsirlərini minimumlaşdırmaq üçün beynəlxalq maliyyə-kredit təşkilatlarının rolu çoxdur. Beynəlxalq maliyyə-iqtisadi təşkilatları tərəfindən həyata keçirilən çoxtərəfli tənzimləmələrin inkişafı istiqamətləri həmin məsələlərdə iştirak edən dövlətlərin konkret maraqlarından, milli dövlətlərin həyata keçirdiyi siyasətdən asılıdır. Bu zaman çoxtərəfli razılaşmalar iştirakçıların milli suverenliyinə toxunmadan hökumətlər tərəfindən ticarət, maliyyə, valyuta məsələləri üzrə qəbul olunan qərarlara təsir göstərir. Bu sahəyə, dövlət siyasətində həyata keçirilən tənzimləmə tədbirləri ilə yanaşı, beynəlxalq iqtisadi əlaqələrin inkişafına təsir mexanizmi də daxildir. Çoxtərəfli tənzimləmələrin mərkəzi halqasını beynəlxalq ticarət, maliyyə, valyuta, invetisiya sahəsində hamı tərəfindən qəbul edilən normaların yaradılması təşkil edir [5].

2023-cü ildə xarici iqtisadi mühit geosiyasi gərginliklərin təzyiqi altında qalmışdır. Bu dövrdə qlobal ticarət dünyada gedən iqtisadi fraqmentasiya proseslərindən təsirlənmişdir. Qlobal iqtisadi aktivlik zəifləmiş və maliyyə sabitliyi ilə bağlı risklər 2 artmışdır. Qlobal enerji və ərzaq qiymətlərində azalma müşahidə olmuş, dünyanın əksər ölkələrində monetar şəraitin sərtləşdirilməsi davam etmişdir. Bütün bunlar qlobal inflyasiyanın azalmasına səbəb olmuşdur. Bu dövrdə ticarət tərəfdaşlarında inflyasiya təzyiqləri azalsa da, əksər tərəfdaşlarda faktiki inflyasiya hədəfi üstələmişdir. İl ərzində xarici şərait Azərbaycan üçün əlverişli olaraq qalmış,

tədiyə balansında iri həcmli profisit formalaşmış, qeyri neft-qaz sektorunda iqtisadi artım davam etmişdir. [6]/


***Ədəbiyyat:***

1. Madura, Jeff, 'Financial Market and Institutions', 7th Edition, Thomson South Western, s.442-445.
2. Mahrez Gil, Kaufmann Daniel, "Liberalization, Transparency and Financial Crisis", August 1999, s.21.
3. Wasserstom, Eric, "On the Financial Crisis: It's Not Just Weak Oversight" The New York Times, September 2008.
4. Kenç, Turalay, "Kredi Krizi Sonrasında Risk Modelleri ve Basel II Notu", "BDDK".
5. Kuruluş Yıl Dönümü" Konfransı, Avqust 20087. Azərbaycan Respublikası Dövlət Statistika Komitəs.i
6. Azərbaycan Respublikasının Mərkəzi Bankı.


## ЖАҺАНДЫҚ СЫН-ҚАТЕРЛЕР ЖАҒДАЙЫНДАҒЫ ЭКОНОМИКАЛЫҚ ЖӘНЕ ЭКОЛОГИЯЛЫҚ ДАМУ МӘСЕЛЕЛЕРІ


*Акишева Н., Майтанова А., Русланулы Е.*
*Ғылыми жетекшісі Алмагамбетова С.Т., т.ғ.к., қауымд.профессор*
*Алматы технологиялық университеті*


XXI ғасырда экологиялық қауіпсіздіктің негізгі қауіптері мынадай жаһандық экологиялық проблемаларды білдіреді: атмосфераның ластануы, парниктік эффект мәселесі, озон қабатының сарқылуы, су ресурстарының ластануы және сарқылуы, биоәртүрліліктің төмендеуі, табиғи ландшафтты бұзу, жердің радиациялық ластануы.

Жер алып айна сияқты күн сәулелерін ғарышқа қайтарады. Бірақ олардың жолында метан (CH) мен көмірқышқыл газы ($CO_2$) сияқты парниктік газдар бар. Олар инфрақызыл спектрдің сәулелерін сіңіреді, сондықтан планетада температура жоғарылайды [1].

Метан молекуласының орташа өмір сүру уақыты шамамен 12 жыл, яғни ол өздігінен ыдырайды. Бірақ көмірқышқыл газы мәңгілік. Әрине, оны жердегі экожүйелер сіңіреді, бірақ олардың мүмкіндіктері шексіз емес. Қазір әртүрлі технологиялар пысықталуда, адамзат мұхитпен $CO_2$ сіңіру мәселесінде ешқашан тартыла алмайды. Сондықтан қазір ауаны қалай тазарту керектігі туралы емес, шығарындыларды қалай тезірек азайту керектігі туралы ойланған дұрыс.

Соңғы 70 жылдағы температураның өсуі ешқандай тарихи заңдылықтарға сәйкес келмейді. Жаһандық жылыну экономикалық дағдарыстарға, тіпті соғыстарға әкелуі мүмкін. Бұл бүкіл әлем үшін, бүкіл адамзат үшін маңызды сынақ. Мұндай өзгерістер биоәртүрлілікке орны толмас зиян келтіруі, экономика мен инфрақұрылымға өте жағымсыз әсер етуі, адамдарға тікелей қауіп төндіруі мүмкін.